**Azərbaycan Cənubi Qafqazda sülhün, Avropada enerji təhlükəsizliyinin təminatçısıdır**

Müasir beynəlxalq münasibətlər sistemində enerji təhlükəsizliyi artıq iqtisadi sabitlik göstəricisi olmaqla yanaşı, dövlətlərin geosiyasi mövqeyini, regional təsir imkanlarını və beynəlxalq etibarlılığını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

Son illərdə qlobal miqyasda artan siyasi qarşıdurmaların, enerji bazarında qeyri-müəyyənliyin, nəqliyyat marşrutlarının risklərlə üzləşməsinin və ənənəvi təchizat kanallarında yaranmış problemlərin Avropanın enerji strategiyasında fundamental dəyişikliklərə səbəb olduğunu bildirib. Onun sözlərinə görə, xüsusilə, Rusiya-Ukrayna müharibəsi, İran-İsrail-ABŞ müharibəsi və Yaxın Şərqdə davam edən gərginlik Avropa dövlətlərini enerji mənbələrinin şaxələndirilməsini sürətləndirməyə, yeni və etibarlı tərəfdaşlarla uzunmüddətli əməkdaşlıq qurmağa vadar edir. Belə mürəkkəb geosiyasi reallıqda nəzərlər həm sabit və etibarlı enerji təchizatçısı, həm də Cənubi Qafqazda sülh və təhlükəsizliyin təminatçısı olan Azərbaycana yönəlir.

Azərbaycanın enerji siyasəti təsadüfi və situativ qərarlara deyil, ardıcıl və institusional əsaslara söykənən uzunmüddətli strategiyaya əsaslanır. 1994-cü ildə imzalanmış və tarixə "Əsrin müqaviləsi" kimi daxil olmuş beynəlxalq neft sazişi ölkənin müasir enerji diplomatiyasının başlanğıc nöqtəsi olub. Bu müqavilə, yalnız xarici investisiyaların cəlb edilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq enerji sisteminə inteqrasiyası və qlobal tərəfdaş kimi tanınması baxımından mühüm dönüş nöqtəsi idi. Sonrakı illərdə həyata keçirilən layihələr bu ilkin strategiyanın məntiqi davamı kimi çıxış edib, ölkənin enerji sektorunu regional və qlobal miqyasda daha cəlbedici edib.

Bu kontekstdə Bakı-Tbilisi-Ceyhan boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri enerji əməkdaşlığının əsas sütunları kimi formalaşıb. Hər iki layihə iqtisadi gəlirlərlə yanaşı, region dövlətləri arasında qarşılıqlı asılılığın artmasına, siyasi dialoqun genişlənməsinə və beynəlxalq enerji xəritəsində Cənubi Qafqazın strateji mövqeyinin möhkəmlənməsinə xidmət edib. Bu infrastruktur təşəbbüsləri nəticəsində Azərbaycan Xəzər hövzəsinin enerji ehtiyatlarını Qərb bazarlarına təhlükəsiz və alternativ marşrutlarla çatdıran əsas körpüyə çevrilib.

Enerji siyasətinin növbəti mərhələsi isə Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması ilə bağlıdır. Bu, çoxkomponentli sistem Xəzərdə hasil olan təbii qazı Avropaya nəql edən strateji enerji arteriyası kimi qiymətləndirilir. Dəhlizin əsas hissələrindən biri Cənubi Qafqaz Qaz Boru Kəməri Azərbaycan qazını Gürcüstan üzərindən Türkiyə ilə sərhədə qədər daşıyır. Layihənin daha bir komponenti olan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Azərbaycan qazını Gürcüstan sərhədindən Türkiyə ərazisi boyunca Yunanıstan sərhədinədək nəql edir. Bu kəmər Türkiyənin enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, Avropaya qaz ötürülməsi üçün əsas tranzit xətt rolunu oynayır. TANAP-ın ilkin ötürmə gücü 16 milyard kubmetr olub və 17 fevral 2026-cı il tarixində Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda keçirilən dəyirmi masada Prezident İlham Əliyev gələcəkdə TANAP-ın illik həcminin 31 milyard kubmetrə çatdırılmasının nəzərdə tutulduğunu qeyd edib.

Dəhlizin digər bir komponenti olan Trans-Adriatik boru kəməri (TAP) 2020-ci il dekabrın 31-də istismara verilib və bununla da Azərbaycan qazının birbaşa Avropa bazarına çıxışı təmin edilib. Bu hadisə təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan yeni mərhələnin başlanğıcı olub.

Rəsmi statistik göstəricilər enerji sektorunda müşahidə olunan artım dinamikasını aydın şəkildə nümayiş etdirir. 2017-ci ildə ölkədə təbii qaz hasilatı 28,6 milyard kubmetr təşkil etdiyi halda, 2025-ci ildə bu rəqəm 51,5 milyard kubmetrə yüksəlib. Eyni dövrdə, qaz ixracı 8,5 milyard kubmetrdən 25,2 milyard kubmetrə qədər yüksəlib. Bu artımın əsas səbəbi Avropa bazarlarına çıxış imkanlarının genişlənməsi, infrastrukturun gücləndirilməsi və uzunmüddətli müqavilələrin imzalanmasıdır. İxrac edilən qazın 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetri isə Suriyaya ixrac olunub. Azərbaycandan qaz idxal edən 16 ölkədən - Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya - 13-ü Avropa ölkəsidir, o cümlədən 10 ölkə Avropa İttifaqının üzvüdür. Statistik rəqəmlərdən aydın olur ki, Azərbaycan son 5 ildə Avropaya 56 milyard kubmetrdən çox təbii qaz nəql etməklə, Avropa İttifaqına təbii qaz ixrac edən ölkələr arasında ilk beşlikdə qərarlaşıb. Artıq Azərbaycan qazı Mərkəzi və Şərqi Avropa ilə yanaşı, Qərbi Avropa bazarına da daxil olmaqdadır. Bu fakt ölkənin Avropanın enerji təhlükəsizliyində sistemli və artan rolunu bir daha təsdiq edir.

2022-ci ilin iyul ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış strateji enerji tərəfdaşlığı sənədi əməkdaşlığın yeni mərhələsini müəyyən edib. Həmin razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya illik tədarük həcminin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bu məqsədlə mövcud boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması istiqamətində ardıcıl işlər aparılır.

Enerji təhlükəsizliyi məsələsinin mühüm komponentlərindən biri də regional sabitlikdir. Cənubi Qafqazda uzun illər davam etmiş münaqişələrin aradan qaldırılması istiqamətində atılan addımlar enerji layihələrinin davamlılığını birbaşa şərtləndirir. 2025-ci il avqustun 8-də ABŞ-nin iştirakı ilə Azərbaycan və Ermənistan arasında paraflanmış sülh müqaviləsi regionda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına təkan verib. Azərbaycan - Ermənistan münasibətlərində qarşıdurmadan əməkdaşlığa keçid, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, o cümlədən enerji və logistika kommunikasiyalarının açılması regionun geoiqtisadi potensialını əhəmiyyətli dərəcədə artırır. Zəngəzur dəhlizinin (TRIPP layihəsinin) perspektivdə Mərkəzi Asiya ilə Avropa arasında enerji və nəqliyyat körpüsünə çevrilməsi ehtimalı Azərbaycanın sülh təşəbbüslərinin strateji əhəmiyyətini bir daha ifadə edir.

Azərbaycanın beynəlxalq platformalarda sülh gündəliyini təşviq etməsi isə xüsusilə diqqətəlayiqdir. Dünya İqtisadi Forumu çərçivəsində irəli sürülmüş Sülh Şurası təşəbbüsünə təsisçi üzv kimi qoşulması, eləcə də müxtəlif beynəlxalq tədbirlərdə sülh və əməkdaşlıq çağırışları ölkənin qlobal təhlükəsizlik arxitekturasında artan rolunu nümayiş etdirir. Enerji layihələrinin təhlükəsiz və fasiləsiz icrası üçün sabit siyasi mühit əsas şərt

olduğundan, Azərbaycanın regional sabitliyə verdiyi töhfə Avropanın enerji təhlükəsizliyinin də mühüm təminatlarından biridir.

Bununla yanaşı, enerji siyasətinin gələcək istiqamətləri bərpaolunan enerji və dekarbonizasiya hədəfləri ilə sıx bağlıdır. Avropa İttifaqının uzunmüddətli məqsədi iqlim neytrallığına nail olmaqdır və bu prosesdə keçid mərhələsində təbii qaz sabitləşdirici rol oynasa da, yaşıl enerji layihələrinin inkişafı əsas prioritetlərdəndir. Azərbaycan bu kontekstdə təkcə qaz ixracatçısı kimi deyil, həm də bərpaolunan enerji sahəsində perspektivli tərəfdaş kimi çıxış edir. Avropa Komissiyasının 2026-cı ildə Şərq Tərəfdaşlığı, Cənubi Qafqaz, Türkiyə və Mərkəzi Asiya regionlarında enerji bağlantılarına dair hazırladığı analitik icmalda da Azərbaycanın bərpaolunan enerji mənbələriylə bağlı bir sıra (“Masdar 1 GW Renewables Portfolio (solar + wind)”) layihələrin Avropanın dekabornizasiya hədəfləri ilə üst-üstə düşdüyü qeyd edilib.

Ötən il aprelin 4-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında Prezident İlham Əliyev açılış nitqi zamanı 2030-cu ilə qədər ölkədə 6 giqavat gücündə Günəş və külək enerjisi istehsalının təmin olunmasının planlaşdırıldığını qeyd edib. Artıq imzalanmış müqavilələr və həyata keçirilən layihələr bu hədəfin real əsaslara söykəndiyini göstərir.

Azərbaycan və Avropa daxil olmaqla 27 ölkənin, 11 beynəlxalq maliyyə institutu və təşkilatın, həmçinin 49 enerji şirkətinin iştirakı ilə 3 mart 2026-cı il tarixində ölkəmizdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurasının 4-cü iclasında səsləndirilən fikirlər, bir daha Azərbaycanın regionda sülh təminatçısı kimi və Avropada isə enerji təminatçısı kimi yüksək nüfuzunun göstəricisi kimi dəyərləndirilə bilər. “Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi” və “Yaşıl enerji layihələri” üzrə plenar sessiyalar, “Azərbaycan-Avropa İttifaqı Yaşıl Bağlantı üzrə İnvestisiya dəyirmi masası” kimi bölmə iclaslarında səslənən fikirlər də, belə deməyə əsas verir ki, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu gələcəkdə daha da artacaqdır. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurasının 4-cü iclasında dövlətimizin başçısı İlham Əliyevin səsləndirdiyi “....Avropa enerji bazarında səylərimizlə bağlı məsələlərə gəlincə, düşünürəm auditoriyanın bilməyi vacib olardı ki, biz bu yaxınlarda Türkiyədə ən böyük elektrik stansiyalarından birini əldə etmişik - 870 meqavat gücündə. Ötən ay Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalandı. Beləliklə, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır”,- fikirlər də Avropanın enerji təminatı və təhlükəsizliyində Azərbaycanın gələcək perspektivlərini ifadə edir. Ölkəmiz 2030-cu ildən etibarən bərpaolunan enerji mənbələrindən əldə olunan elektrik enerjisinin də ixracına başlayacaq ki, bu da Avropanın enerji təhlükəsizliyinə daha bir töhfə olacaq. Bu isə o deməkdir ki, Azərbaycan qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdətinə sərmayə yatıran ölkə kimi dünyaya nümunədir.

İşğaldan azad edilmiş Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında qurulmuş 270 meqavatlıq su elektrik stansiyaları, eləcə də istismara verilmiş 30-dan artıq kiçik SES

regionun yaşıl enerji potensialının reallaşdırılmasına xidmət edir. Bu layihələr nəticəsində daxili elektrik istehsalında istifadə olunan təbii qaza qənaət ediləcək və daha böyük həcmdə qazın ixraca yönəldilməsi mümkün olacaq. Beləliklə, yaşıl enerji strategiyası həm daxili enerji balansının optimallaşdırılmasına, həm də Avropanın təchizat təhlükəsizliyinə əlavə töhfə verir.

“Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi bu baxımdan xüsusi strateji əhəmiyyət daşıyır. Gürcüstan, Rumıniya, Macarıstan və Azərbaycan arasında imzalanmış memorandum əsasında Qara dənizin dibi ilə çəkiləcək 1155 kilometrlik yüksəkgərginlikli kabel xətti Cənubi Qafqaz ilə Cənub-Şərqi Avropanın enerji sistemlərini birbaşa birləşdirəcək. “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” layihəsinin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) 2026-2036-cı illər üzrə Şəbəkə İnkişaf Planına (TYNDP) daxil edilməsi ilə bağlı aparılan müzakirələr də layihənin Avropa miqyasında prioritet layihə kimi qəbul edildiyini göstərir.

Beləliklə, araşdırmalar bu nəticəyə gəlməyə əsas verir ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində aparıcı rolu çoxşaxəli və institusional əsaslara söykənir. Ölkə zəngin enerji ehtiyatlarına, inkişaf etmiş infrastruktur şəbəkəsinə, sabit siyasi mühitə və fəal sülh diplomatiyasına malik olmaqla regional və qlobal enerji arxitekturasında mühüm yer tutur. Enerji ixracının artımı, yaşıl enerji layihələrinin genişlənməsi, regional sabitliyin təşviqi və beynəlxalq tərəfdaşlarla strateji əməkdaşlıq Azərbaycanın həm etibarlı enerji tərəfdaşı, həm də Cənubi Qafqazda sülh və təhlükəsizliyin təminatçısı kimi mövqeyini daha da möhkəmləndirir. Bu reallıq Azərbaycanın Avropanın enerji təhlükəsizliyində aparıcı dövlət statusunu obyektiv şəkildə əsaslandırır.